KRED

№47 (1127) 24 noyabr 2022-ci il



# PROFESSOR VÜQAR ƏHMƏDİN YENİ MONOQRAFİYASI




Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 4 oktyabr 2022-ci il tarixli (6 saylı protokol) qərarı ilə Mətbuat tarixi və publisistika şöbəsinin müdiri,filologiya elmləri doktoru, professor Vüqar Əhmədin "Hayrettin Hoca" monoqrafiyası nəşr edilib.

Kitabınelmi redaktoruAMEA-nın prezidenti, akademik İsa Həbibbəylidir. "Ön söz"ün müəllifi Ədəbiyyat İnstitutunun icraçı direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Mehman Həsənli,-redaktoru böyük elmi işçi Dilbər Rzayevadır. Rəyçiləriprofessor, şair Elçin İsgəndərzadə,Ədəbiyyat İnstitutunun Mətbuat tarixi vəpublisistika şöbəsinin aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfədoktoru, dosent Gülbəniz Babayeva və şair, tədqiqatçı, Azərbaycan Yazıçılar Birliyinin üzvü Qardaş Əlişoğludur.

Professor Hayrettin İvginin elmi-ədəbifəaliyyəti haqqında monoqrafiya "Ecoprint" nəşriyyatında200 səhifə ilə çap olunub. Türk Dünyasının şöhrətli alimi,akademik Hayrettin İvginin yaradıcılığı çoxşaxəlidir.O həm folklorşünas alim,araşdırmaçı, ədəbiyyatşünas, həm də tarixçi-etnoqrafdır. Əgər onun yazdığılirik şeirləri ayrıca bir poetik məziyyət hesab etsək, Hayrettin bəyin yaradıcılığınınümumi mənzərəsini tamamilə əhatə etməkdən ötrü, bəlkə də, onlarla kitab yazmaq lazım gələr. Bu səbəbdən də müəllif onun yaradıcılığıilə sadəcə yığcam şəkildə oxucuları tanış etmək istəyib. Professor Hayrettinİvginin dəst-xəttinin nə qədər gerçək olduğunu təsdiqləməkdən ötrü Vüqar Əhməd bu monoqrafiyada bir sıra tədqiqatçıların, elm adamlarının kitablarından,məqalələrindən, yazılarından faydalanaraq, eyni zamanda arxivsənədlərinə istinadən öz araşdırmalarını və fikirlərini ümumiləşdirərək bu əsəri meydana gətirib.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.Monoqrafiyadan türkfilologiyası ilə məşğul olan bakalavr, magistrant, doktorant, eləcə də tədqiqatçıalimlər faydalana bilər.

*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu İctimaiyyətlə əlaqələr şöbəsi*